ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# “ŞUŞA İLƏ BAĞLI BİZİM DƏ XÜSUSİ LAYİHƏLƏRİMİZ OLACAQ”

Beynəlxalq Türk Akademiyasının prezidenti səlahiyyətlərini icra edən Füzuli Məcidli: “Qarabağdakı türk irsinin tədqiq edilməsi, dağıntıya məruz qalmış abidələrimizin tanıdılması, bərpası, arxeoloji tədqiqatların aparılması, Akademiyaya üzv və tərəfdaş ölkələrdən arxeoloqların cəlb edilməsi ilə Qarabağ irsinin araşdırılması və dünyaya tanıdılması ilə bağlı layihələrimiz var”.

Beynəlxalq Türk Akademiyası (BTA) türk xalqlarının zəngin mənəvi və tarixi mirasını araşdıran, türkdilli dövlətlər arasında təhsil və elm sahəsində əməkdaşlığı həyata keçirən təşkilat olaraq fəaliyyətini genişləndirir. BTA 10 ildən artıqdır ki, Türk Dövlətləri Təşkilatı, TürkPA, TÜRKSOY, Türk Mədəniyyəti və İrsi Fondu kimi müxtəlif istiqamətlər üzrə formalaşan qurumlarla bir sırada türk dünyasına öz töhfəsini verməkdədir.
Siyasi elmlər üzrə fəlsəfə doktoru, BTA-nın prezidenti səlahiyyətlərini icra edən Füzuli Məcidlinin “Kaspi” qəzetinə müsahibəsində təşkilatın fəaliyyətinə, türkdilli dövlətlər arasında elm və təhsil sahəsində əməkdaşlığın həyata keçirilməsində oynadığı roluna nəzər saldıq.

MÜSAHİBƏ



SÖHBƏTLƏŞDİ:
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

### TÜRK DÜNYASININ “YUMŞAQ GÜCÜ”

**● Füzuli müəllim, Beynəlxalq Türk Akademiyasının əsas fəaliyyət istiqamətlərini və məqsədini necə xarakterizə edərdiniz?**

● Beynəlxalq Türk Akademiyasının məqsədi Türk xalqlarının qədim və müasir tarixi, dil, ədəbiyyat və mədəniyyətini, Türk xalqlarının bəşər sivilizasiyasına töhfəsini tədqiq etmək, Türk dünyasında akademik fəaliyyətin koordinasiyasını həyata keçirməkdir. Bu məqsədlə Akademiya türk xalqlarının elmi təşkilatlarına elm və təhsil məsələsində yardımçı olur, türkdilli ölkələr və xalqların, ziyalıların təşəbbüslərinə dəstək verir, onları müntəzəm olaraq bir araya gətirir, bu istiqamətdə dövlət başçılarının təlimatlarının icrasını reallaşdırır. Bizim irsimizi, mədəniyyətimizi indiyə qədər daha çox başqaları araşdırıb. Türkologiya sahəsində Avropa, rus, qərb alimləri tədqiqatlar aparıb və bizi bizə tanıtmağa çalışıblar. Amma bundan sonra bizim imkanımız var ki, bu sahədə mütəxəssislər hazırlayaq və bir beynəlxalq qurum olaraq türk əməkdaşlığı özümüz koordinasiya edək. Bu baxımdan, Akademiyanın fəaliyyəti bizə türk dünyasının birləşdirici “yumşaq gücü” olaraq elm və təhsil sahəsində əməkdaşlığımızı koordinasiya etməyə fokuslanıb.

> *“Azərbaycan dövləti də Türk Akademiyasının fəaliyyətini təqdir edir, dəstəkləyir. Qeyd edim ki, bu il Özbəkistanda keçiriləcək Zirvə görüşündə rotasiya qaydasında təşkilata prezidentlik Azərbaycana keçəcək. Növbəti 4 il üçün Akademiyanın prezidenti Azərbaycan vətəndaşı olacaq.”*

### AZƏRBAYCANIN BEYNƏLXALQ SƏVİYYƏDƏ TƏBLİĞİ

**● Təşkilatın Azərbaycanla əməkdaşlığı hansı istiqamətləri əhatə edir?**

● Azərbaycan türk xalqlarının ilkin məskunlaşdığı ərazilərdən biri kimi tarixi tədqiqatların aparılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın əldə etdiyi nailiyyətlərin öyrənilməsi, türk dünyasında və beynəlxalq səviyyədə təbliği Türk Akademiyasının prioritetləri sırasındadır. Ötən ilin sonlarından etibarən üzv dövlətlərdən - Türkiyə, Azərbaycan, Qazaxıstan və Qırğızıstandan mütəxəssislər almağa başladıq. Düzdür, istisna olaraq mən 2015-ci ildən Akademiyada çalışıram və ötən il Azərbaycan vitse-prezident səviyyəsində təyinat həyata keçirib. Bundan sonra əməkdaşlıq üçün daha geniş imkanlar açılır. Təşkilat Azərbaycanın həqiqətlərini dünyaya çatdırmaq məqsədi ilə Qarabağla bağlı tədqiqatlara başlayıb. İlk dəfə olaraq bir beynəlxalq təşkilat tərəfindən ingilis və qazax dillərində Qarabağın tarixi, mədəniyyəti, coğrafiyası və işğal altında olan ərazilərlə bağlı faktların, sənədlərin yer aldığı albom-kitab hazırlanıb.

**● Azərbaycanın təşkilat qarşısındakı öhdəlikləri nədir?**

● Təşkilata ilk rəhbər Qazaxıstandan seçilib. 8 il müddətində tarix elmləri doktoru, professor Darhan Kıdıralı BTA-nın prezidenti kimi çalışıb. Azərbaycan dövləti də Türk Akademiyasının fəaliyyətini təqdir edir, dəstəkləyir. Qeyd edim ki, bu il Özbəkistanda keçiriləcək Zirvə görüşündə rotasiya qaydasında təşkilata prezidentlik Azərbaycana keçəcək. Növbəti 4 il üçün Akademiyanın prezidenti Azərbaycan vətəndaşı olacaq.

### QƏDİM MİRASI ORTAYA ÇIXARMAQ

**● BTA-nın prezidenti Darhan bəy yazıçı Anarla görüşündə Azərbaycanla 3 il müddətinə davam edəcək çoxtərəfli tədqiqat işlərinə başlanacağını demişdi...**

● 44 günlük müharibədən əvvəl “Qafqazda türk mirası” adlı beynəlxalq layihəyə başlayacaqdıq. Bu layihə Darhan bəyin təşəbbüsü idi. Altaylardan başlayan, Monqolustan və Macarıstanda da davam edən, hazırda Qazaxıstanda icrasını həyata keçirdiyimiz layihənin Qafqazlarda da həyata keçirilməsini nəzərdə tuturduq. Bu layihə çərçivəsində Qafqazdakı yer və su adları, toponimlər, onomastika, tarixi abidələr, Göytürklər, Səlcuqlar, Ağqoyunlu və Qaraqoyunlu dövrlərinə aid ortaq mirasımızın araşdırılıb üzə çıxarılması nəzərdə tutulur.



## ÜÇ DƏRSLİK - TARİXİ HADİSƏ

**● Yeri gəlmişkən, “Ortaq Türk Tarixi” dərsliyinin tədrisi ilə bağlı informasiyalar artıq var...**

● Ortaq dərsliklərlə bağlı 2012-ci ildə dövlət başçılarının təlimatı əsasında başlayan bir proses var idi. BTA “Ortaq Türk tarixi” dərsliyini XV yüzilə qədər olan dövrünü artıq hazırlamışdı. Bu, 2018-ci ildə ekspertlər səviyyəsində qəbul olunandan sonra Akademiyanın Elmi Şurasının qərarı ilə ölkələrimizdə tədrisinə start verildi. Xüsusən Türkiyə, Qazaxıstan və Azərbaycanda könüllü “seçməli” fənn olaraq tədris olunmağa başlandı. Amma burada razılaşdırılması lazım olan bəzi məqamlar vardı. Ölkələr müxtəlif təkliflər verir. Hər ölkənin tarixə yanaşması fərqlidir. Bütün ölkələrin maraqlarının bir araya gətirilməsi, bizi birləşdirən dəyərlərə daha çox önəm verilməsi üçün ekspertlər bir neçə dəfə toplandı və son olaraq bu ilin may ayında üzv ölkələrin təhsil nazirliklərinin nümayəndələri, ekspertlərin iştirakı ilə İstanbulda keçirilən toplantısında “Ortaq Türk Ədəbiyyatı”, “Türk Dünyası Coğrafiyası” və “Ortaq Türk Tarixi” dərsliklərinin proqram və mətnləri razılaşdırıldı.

### ŞUŞA İLƏ BAĞLI XÜSUSİ LAYİHƏLƏR

**● Şuşa şəhərinin gələn il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan olunması yəqin ki, BTA-nın da qarşısına müəyyən vəzifələr qoyur.**

● Şuşa ilə bağlı xüsusi layihələrimiz olacaq. Bu il Şuşa şəhərinin 270 illiyidir. Bir sıra ortaq layihələrimizi həyata keçirəcəyik. Xüsusən, Qarabağdakı türk irsinin tədqiq edilməsi, dağıntıya məruz qalmış abidələrimizin tanıdılması, bərpası, arxeoloji tədqiqatların aparılması, Akademiyaya üzv və tərəfdaş ölkələrdən arxeoloqların cəlb edilməsi ilə Qarabağ irsinin araşdırılması və dünyaya tanıdılması ilə bağlı layihələrimiz var. Türk Akademiyasının Şuşa şəhərində Türk dünyası parkının və kitabxanasının qurulması ilə bağlı bir təklif də hazırlayıb.






Fotolar: Firudin Salimov / Global Media Group